İPƏK YOLU, No.3, 2024, səh.125-133
https://doi.org/10.30546/SI.2024.2.3.329

# POSTSOVET DÖVRÜ AZƏRBAYCAN VƏ RUS NƏSRİNDƏ REALİZMİN ƏDƏBİ-ESTETİK TİPOLOGİYASI VƏ POETİK MODİFİKASİYALARI (müqayisəli aspektlər)

**Tamilla Əliyeva**

Dokuz Eylül Universiteti, İzmir, Türkiyə
e-mail: aliyeva.toma@yahoo.com

**Xülasə.** Məqalədə postsovet dövründə Azərbaycan nəsrində realizmin yeni gerçəkliyə, ədəbi mühitə, tarixi situasiyaya uyğun modifikasiyaları tədqiq edilir. Bu məqsədlə Azərbaycan ədəbiyyatında realizmin tarixi təşəkkülü və maarifçi realizmin, tənqidi realizmin inkişafı araşdırılır. Eyni zamanda türk xalqlarında maarifçiliyin təşəkkülü, realist yaradıcılığın yaranması və inkişafı izlənilmişdir. Sovet dövrünə xas proseslər - sosialist realizmin ideoloji səciyyəsi, inqilabi romantika və bu anlayışların ziddiyyətləri, mövcud siyasi ideologiyanı əks etdirməsi göstərilir. Postsovet dövründə Azərbaycan və rus nəsrində realizmin modifikasiyaları təhlil edilir.

**Açar sözlər:** Realizm, Azərbaycan nəsri, rus nəsri, magik realizm, sosial-psixoloji ədəbiyyat, sərt realizm, neorealizm, hiperreallıq.

## REALISM IN POST-SOVIET AZERBAIJAN AND RUSSIAN PROSE LITERARY-AESTHETIC TYPOLOGY AND POETIC MODIFICATIONS

**Tamilla Aliyeva**
*Dokuz Eylul University, Izmir, Turkiye*

**Abstract.** The article studies the modifications of realism in Azerbaijani prose in the post-Soviet period according to the new reality, literary environment and historical situation. For this purpose, the historical formation of realism and the development of enlightened realism and critical realism in Azerbaijani literature are explained. At the same time, the formation of enlightenment, the emergence and development of realistic creativity in the Turkic peoples is analyzed. Processes specific to the Soviet era - the ideological character of socialist realism, revolutionary romance and the contradictions of these concepts, reflecting the current political ideology - are shown. Modifications of realism in Azerbaijani and Russian prose in the post-Soviet period are analyzed.
**Keywords:** Realism, Azerbaijani prose, Russian prose, magical realism, socio-psychological literature, hard realism, neorealism, hyperreality.

## ЛИТЕРАТУРНО-ЭСТЕТИЧЕСКАЯ ТИПОЛОГИЯ И ПОЭТИЧЕСКИЕ МОДИФИКАЦИИ РЕАЛИЗМА В ПОСТСОВЕТСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ И РОССИЙСКОЙ ПРОЗЕ

**Тамилла Алиева**
*Университет Докуз Эйлюль, Измир, Турция*

**Резюме.** Целью статьи является изучение модификаций реализма в азербайджанской прозе в постсоветский период в соответствии с новой действительностью, литературной средой и исторической ситуацией. Для этого были объяснены историческое становление реализма и развитие просвещенного реализма и критического реализма в азербайджанской литературе. В то же время было прослежено становление просветительства, возникновение и развитие реалистического творчества у тюркских народов. Показаны процессы, характерные для советской эпохи - идеологический характер социалистического реализма, революционного романа и противоречия этих понятий, отражающие современную политическую идеологию. Анализируются модификации реализма в азербайджанской и русской прозе в постсоветский период.
**Ключевые слова:** Реализм, азербайджанская проза, русская проза, магический реализм, социально-психологическая литература, жесткий реализм, неореализм, гиперреальность.

## 1. Giriş

Keçmiş SSRİ-nin süqutundan sonrakı dövrün mühüm siyasi, ictimai, milli, dövlətçilik və mədəni nailiyyətlərindən biri də bədii ədəbiyyatın kommunist ideologiyasının ehkamlarından, o cümlədən mahiyyət etibarilə gerçək milliliyi inkar edən "məzmunca sosialist" formulundan azad olması və milli ədəbiyyatlar arasında məhz ədəbi-estetik, azad və sərbəst qarşılıqlı dialoqun, zənginləşmənin başlanması oldu. Bu proses postsovet məkanı ilə yanaşı, Qərb, Şərq, Amerika və digər regionların və xalqların da ədəbi prosesini əhatə etdi. Sərbəst, azad, qarşılıqlı faydalı ədəbi dialoq nəticəsində postsovet məkanındakı xalqların ədəbiyyatında postmodernizm, magik realizm, sürrealizm kimi yeni ədəbi cərəyanlar meydana çıxdı. Lakin keçmiş sovet xalqlarında realizmin qaynaqları ilk növbədə milli ədəbi ənənə, XIX əsrin ilk mərhələsindən başlayaraq, türk və Şərq islam xalqlarının ədəbiyyatında Avropa mədəniyyətinin təsiri ilə maarifçilik ideyalarının yayılmağa başlaması oldu. Maarifçiliyin ideoloji, fəlsəfi, estetik, ədəbi prinsiplərinə uyğun olaraq Rusiya imperiyasının tərkibində olan türk xalqlarının, o cümlədən Azərbaycan ədəbiyyatında bilik, savad, xəlqilik, həyatilik, materializm, dünyəvilik tədricən əsas yaradıcılıq meyarlarına çevrildi.

## 2. Türk xalqları ədəbiyyatında maarifçilik

Türk xalqları ədəbiyyatında maarifçiliyin təşəkkülü XIX əsrin ortalarına təsadüf etmiş, aşağıdakı coğrafi ərazilərin regional səciyyələrinə uyğun olmuşdur: 1) Sibir və Orta Asiya, 2) Qafqaz və Azərbaycan, 3) Krım, Volqa boyu və Ural, 4) Osmanlı dövləti.

Qüdrətli imperiya olan Osmanlı dövlətindən, eləcə də İranın tərkibində olan Cənubi Azərbaycandan fərqli olaraq, digər türk regionları Rusiya imperiyasının tərkibində olub və bu amil həmin türk xalqlarında maarifçiliyin məzmununa və formasına təsir etmişdir. Osmanlıda maarifçilik dövlət tərəfindən təşviq olunmuş və Tənzimat hərəkatı ilə nəticələnmişdir. Digər tərəfdən, Osmanlı ədibləri və mütəfəkkirləri Avropa ilə birbaşa təmas imkanına malik olmuşlar.

Rusiyanın tərkibində isə bu əlaqələr bir çox halda rus dili və rus mənbələri vasitəsilə gerçəkləşmişdir, lakin burada da müəyyən islahatlar izlənmiş, eyni zamanda tarixi proseslərin təsiri ilə ölkə daxilindəki xalqlara müəyyən imtiyazlar verilmişdir. Azərbaycan milli burjuaziyası Rusiya ərazisində türk xalqlarının mədəni inkişafına və sosial məsələlərinin həllinə hərtərəfli yardım etmişdir. Türk milli burjuaziyası milli istiqlal ideyalarının formalaşmasında rol oynamışdır.

Özbək, qazax, türkmən, tatar, yakut, altay, krım-tatar, başqırd maarifçilərinin diqqət mərkəzində milli varlığın qorunması, dünyəvi təhsilin inkişafı, ana dilinin saflığı və istifadəsi, ədəbiyyatın xəlqiliyi və realizmi, xurafat və mövhumatdan uzaqlaşmaq, qadın hüquqlarının, sosial bərabərlik və ədalətin təminatı kimi məsələlər olmuşdur.

Türkiyə ədəbiyyatında maarifçilik tənzimat fərmanı (1839) ilə başlamış və bunun təsiri ilə müəyyən siyasi və mədəni islahatlar aparılmış, avropalaşma, dünyəvilik, demokratlıq meyli güclənmiş, yeni mətbuat və təhsil intişar tapmışdır. İslahat Fərmanı (1856) bu prosesi

sürətləndirmiş, ədəbiyyatda xəlqiliyə, həyatiliyə meyl artmış, ədiblər, lakin klassik formalardan və üslubdan tam uzaqlaşmamışlar. 1895-ci ildən Sərvəti-fünun hərəkatı başlamış, Tofiq Fikrət, Hüseyn Cahid, Mehmed Rauf, Süleyman Nazif, İsmayıl Səfa və başqalarının fəaliyyətində və yaradıcılığında da yeni ədəbi janrlar, bədii üslub və ifadə formaları inkişaf etməmişdir. Məşrutə (1908) və Fəcri-ati hərəkatı ("Gələcəyin şəfəqi", 1909-1912) avropalaşmanı vüsətləndirmişdir. Avropalaşmada vüsətli olmadığına görə Səvəti-fünundan aralanan fəcriatiçilər avropalaşmanı əsas vəzifəyə çevirir, fransız ədəbiyyatını örnək götürür, ədəbiyyatda şəxsiliyi və yenilikçiliyi önə çəkirlər. Lakin fəcriatiçilər də klassik janr və ənənəvi eşq mövzusundan, klassik üslubdan ayrılmamış, yeni formalar və janrlardan istifadə etməmişlər. Bununla belə, məqsəd və məramları ilə ədəbiyyatda müəyyən təbəddülat yaradan fəcriatiçilər Milli ədəbiyyat hərəkatına keçid rolu oynamış və bu cərəyanın nümayəndələri sonradan türk ədəbiyyatına yeni meyllər gətirmişlər. Bütövlükdə isə türk maarifçiliyi Avropa realizminə və romantizminə, simvolizm və impressionizmə meyl etmiş, ədəbiyyatda məzmun və formaca avropalaşma meylini təsdiqləmiş, şeirdə əruz əsaslı sərbəst vəzn, yeni qəhrəman və mövzu axtarışları, Avropadan gələn müəyyən üslub vasitələrindən istifadə ilə seçilmişlər.

### 3. Azərbaycan ədəbiyyatında maarifçilik və maarifçi-tənqidi realizm

Azərbaycan maarifçiliyinin türk xalqları maarifçiliyi ilə qarşılıqlı tarixi və tipoloji əlaqələri ortaq və özünəməxsus cəhətləri ilə səciyyələnən geniş ictimai, fəlsəfi, mədəni, ideoloji və ədəbi-mədənidir. "Əkinçi", "Həyat", "İqbal", "Molla Nəsrəddin", "Babayi-Əmir", "Kaspi" kimi Azərbaycan qəzetləri səhifələrində, Azərbaycan maarifçi ədibləri yaradıcılıqlarında türk xalqlarının həyatına geniş yer vermişdir. Azərbaycanın bir çox ədibləri, o cümlədən¸ Axundzadə, Sabir, Məmmədquluzadə, Çəmənzəminli, Ordubadi, Qəmküsar, Mümtaz, Əmin Abid, Nərimanov və başqaları Türkiyəyə, Türküstana, Volqa boyuna, Krıma, Şimali Qafqaza səfərlər etmiş, bütövlükdə Azərbaycan ədəbiyyatı türk xalqları maarifçiliyinə dərindən təsir etmişdir.

Azərbaycan maarifçiliyinin mühüm nailiyyəti ədəbiyyatda, mətbuatda realizmin təsdiqi olmuşdur. Bu prosesin böyük miqyasını maarifçilik daxilində maarifçi realizm, tənqidi realizm, didaktik realizm kimi anlayışların mövcudluğu olmuşdur. Azərbaycan maarifçi realizminin qaynaqları da həyatilik meyarına uyğun olaraq, realist səpgili xalq yaradıcılığı və aşıq poeziyası, ümumtürk ədəbiyyatındakı realizm ənənələri, Avropa, Türkiyə və Rusiya maarifçi ədəbi-fəlsəfi fikri və realizmi olmuşdur.

Azərbaycan maarifçi-tənqidi realizminin əsas nümayəndələri: Molla Pənah Vaqif (1717-1797), Qasım bəy Zakir (1784-1857), Mirzə Şəfi Vazeh (1794-1857), Abbasqulu ağa Bakıxanov (1794-1847), İsmayıl bəy Qutqaşınlı (1806-1861), Mirzə Fətəli Axundzadə (1812-1878), Seyid Əzim Şirvani (1835-1888), Həsən bəy Zərdabi (1837-1907), Nəcəf bəy Vəzirov (1854-1926), Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir (1862-1911), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Nəriman Nərimanov (1870-1925), Məmməd Səid Ordubadi (1872-1956), Əli Nəzmi (1878-1946), Mirzəli Möcüz (1873-1934) və başqaları öz yaradıcılığında yeni

həyati mövzu, ictimai konflikt, fəal və düşüncəli qəhrəman, aydın və xəlqi üslub və janrlara üstünlük vermişlər. Onların yaradıcılığını həyata realist münasibətin tədrici təkamülü, naturalist həyatilikdən bədii-estetik ümumiləşdirməyə və tipikliyə doğru hərəkat, Avropa mənşəli janrların mənimsənilməsi, milli klassika və əcnəbi poetik ünsürlərin sintezi olmuşdur.

Erkən burjua mərhələsində meydana çıxdığından Azərbaycan və digər türk xalqlarında maarifçiliyin poetikası maarifçi realizmin, tənqidi realizmin və romantizmin vəhdətindən ibarət olmuşdur.

Azərbaycan maarifçiliyində maarifçi-didaktik tənqidi realizm, romantizm çulğaşaraq özünəməxsus cərəyanlar və poetik sistem yaratmışdır. Lakin romantiklərdə (Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Səid Səlmasi) və tənqidi-maarifçi realistlərdə (Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Mirzəli Möcüz) maarifçilik ideyaları fərqli bədii təcəssümünü tapsa da, mahiyyət etibarı ilə ortaq ideologiyaya əsaslanmışdır.

Süleyman Sani Axundov (1875-1939), Sultanməcid Qənizadə (1866-1937), Rəşid bəy Əfəndiyev (1863-1942), Üzeyir Hacıbəyov (1875-1948), İbrahim bəy Musabəyov (1880-1942), Yusif Vəzir Çəmənzəminlinin (1887-1943) maarifçi-realist yaradıcılığında isə tənqidi realizm və romantizmə xas xüsusiyyətlər fərqli estetik-bədii sistem yaratmışdır.

Cənubi Azərbaycanda maarifçi və tənqidi realizmin nümayəndələri olan Seyid Əbülqasım Nəbati (1812-1873), Mir Mehdi Şükuhi (1829-1896), Bayraməli Abbaszadə (1869-1926), Mirzəli Möcüz Şəbüstəri (1873-1934), Hacı Rza Sərraf (1854-1907), Bayraməli Abbaszadə (1869-1926), Cabbar Əsgərzadə (1885-1966) və başqaları fərqli ictimai-siyasi mühitdə formalaşdığından, əsasən, didaktik, tərbiyəvi və satirik pafosla səciyyələnmişlər.

Son nəticədə Azərbaycan maarifçiliyi iki ədəbi və siyasi-ideoloji meyldə, bir tərəfdən, “Molla Nəsrəddin” jurnalı və mollanəsrəddinçilər ətrafında təşəkkül təşəkkül tapmış realizm və xəlqi ədiblərdən ibarət meyldə, digər tərəfdən, “Füyuzat” və füyuzatçıların ətrafında formalaşmış romantizm və turançı xəyali istiqamətdə formalaşaraq ədəbiyyatda, təhsildə, mətbuatda gerçəkləşmişdir.

Azərbaycan maarifçi ədəbiyyatının estetik və ideoloji meyarları zəkaya, ağıl və təcrübəyə əsaslanmaq, həyatı gerçəkliyə uyğun təsvir etmək, oxucunu ideala yönəltmək, azadlıq, ədalət, bərabərlik ideallarını tərənnüm etməkdən ibarət olmuşdur.

Maarifçi realizmin poetik xüsusiyyətləri ilk növbədə realist-tənqidi yaradıcılıq metodu, tipikləşdirmə və ümumiləşdirmə, satira və faciəvilik pafosu, fəal qəhrəman axtarışları, həyatilik, dilin xəlqiliyi, sadəliyi, fərdiliyi əhatə etmişdir.

Azərbaycan maarifçi-tənqidi realizminin janr tipologiyası, əsasən, Avropa mənşəli janrlardan - dram, komediya, faciə, satira, publisistika, hekayə, povest, roman, felyeton, məktub, reportaj, fəlsəfi risalə və sairəni əhatə etmişdir.

Azərbaycan ədəbiyyatında müasir nəsrin təşəkkülü də məhz maarifçiliklə bağlı olmuşdur. Maarifçi-realist nəsrin ilk nümunələrinin - Mirzə Fətəli Axundzadənin “Aldanmış

kəvakib" povesti və "Kəmalüddövlə məktubları" fəlsəfi risaləsində; Nəriman Nərimanovun Azərbaycan romanının ilk nümunələri olan "Bahadur və Sona" və Əbdürrəhim Talıbovun "Kitab yüklü eşşək", Məmməd Səid Ordubadinin "Bədbəxt milyonçu" əsərlərində həyatın geniş panoramlı psixoloji-realist təhlilini; Əbdürrəhim bəy Haqverdiyevin bədii nəsrində ("Xortdanın cəhənnəm məktubları", "Mozalanbəyin səyahətnaməsi", "Bomba", "Mirzə Səfər" hekayələri, "Marallarım silsiləsi"), Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani (Müəllimlər iftixarı, Gəlinlər həmayili)" əsərində, Nəcəf bəy Vəzirovun hekayələrində və "Balaca mütəfərriqələr" silsiləsində gerçəkliyin mənəvi-etik və sosial-ictimai dəyərlər ictimai-əxlaqi baxımından təhlili, satirik münasibət və realist tipikləşdirmə; Süleyman Sani Axundovun "Qorxulu nağıllar" silsiləsində ("Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız") milli dəyərlərin ifadəsini və xarakterlərin didaktik təsvirini, İbrahimbəy Musabəyovun "Neft və milyonlar səltənəti", "Xoşbəxtlər", "Cəhalət fədailəri", "Gözəllərin vəfası" povestlərndə sosial-ictimai problematikanın, maarifçi ideyaların ifadəsini; Üzeyir Hacıbəyovun satirik hekayələrində ("Pristav ata", "Bir firəng ilə söhbətim", "Qarabağın keçmiş günlərindən", "Müəllimə", "Dinmə ver pulu", "Məzhəkə") və sairə əsərlərində cəmiyyətin, sosial-mənəvi mühitin realist ədəbi-estetik ifadəsini görə bilərik. Bu kimi əsərlər yeni qəhrəman, süjet və üslub xüsusiyyətləri, personajların analitik-realist təhlili üsulları, psixologizm, fabulanın dinamik inkişafı, obraz və ənənəvi mənəvi keyfiyyətlərin tənqidi təsviri, məişətdə və insan xislətində izlənən naqisliklərin yumorlu təsviri, eyham və ictimai məzmunlu satira və gülüşü, bilik, savad anlayışlarının əhəmiyyətini görə bilərik. Bu və digər maarifçi yazıçıların nəsrində bütövlükdə maarifçilik idealları, xəlqilik, həyatilik, tarixilik meyarları, sosial ədalət, bərabərlik, bilik və elm, dünyəvilik, millilik bədii mətnin aparıcı ideyalarıdır.

## 4. Sovet ədəbiyyatında sosialist realizminin və inqilabi romantikanın səciyyəsi və ziddiyyətləri

Sovet dövründə maarifçilik idealları, o cümlədən maarifçi və tənqidi realizm bir müddət təbliğ və təşviq edilsə də, tədricən tənqidi realizmin obyektivliyi, maarifçi-tənqidi realistlərin sovet gerçəkliyinin ziddiyyətlərinə tənqidi münasibəti sovet ideoloqlarının və ədəbi tənqidinin kəskin reaksiyasına məruz qaldı, bir çox xəlqi yazıçı və şairlər repressiyaya məruz qaldı və proletar ədəbiyyatı anlayışının qaneedici olmadığını anlayan ideoloqların ədəbi prosesdə marksist ideologiyaya və sovet həyat tərzinə uyğun yeni yaradıcılıq metodunun axtarışı aktuallaşdı. Bu siyasi kontekstdə sosialist realizmi anlayışı meydana çıxdı. İosif Stalinin tövsiyəsi ilə formalaşmış bu anlayış ilk dəfə 1934-cü ildə Sovet Yazıçılarının Birinci Ümumittifaq Qurultayında proletar yazıçısı Maksim Qorkinin çıxışında səsləndirildi və SSRİ Yazıçılar İttifaqının Əsasnaməsinə daxil edildi. Həmin Əsasnamədə sosialist realizminin belə bir ilkin tərifi təqdim olundu: "Sovet bədii ədəbiyyatını və ədəbi tənqidinin əsas metodu olan sosialist realizmi sənətkardan gerçəkliyin inqilabi inkişafda həqiqi, tarixi cəhətdən konkret təsvirini tələb edir". Bu anlayışın birtərəfliliyini anlayan sovet ideoloqları sosialist realizmini "inqilabi romantika" adlandırdıqları pafosla tamamladılar və bu zaman Maksim Qorkinin,

Səməd Vurğun və Nazim Hikmətin romantik ruhlu yaradıcılığına da əsaslandılar, lakin sosialist realizminə xas romantizm anlayışı bu ədəbi cərəyan və yaradıcılıq üsulunun mahiyyətinə uyğun deyidi. Professor Vəli Osmanlı əsaslı olaraq, sosialist realizmindəki romantik pafosun klassik romantiz meyarlarından uzaq olduğunu bildirir: "Romantizmdə siyasi inqilab, üsyan və mübarizələr, müharibələr mövzulu əsərlərdə belə çəkişmə və döyüş səhnələrinin gedişi deyil, onların mənəviyyatda doğurduğu təlatümlər, lirik qəhrəmanda oyatdığı hiss və həyəcanların ardıcıl təsviri üsulu məqbul sayılır" [4, s.192].

Sovet ideoloqları realizmi və romantik pafosu Vladimir Lenindən gələn sinfi, ideoloji meyarlarla müəyyənləşdirib təhrif edirdilər. Əslində ədəbiyyatın, sənətin yüksək mənəvi-estetik mahiyyətindən uzaq olan bu meyarlar sinfilik (proletar və kəndli sinfinin mövqeyinin ifadəsi), partiyalılıq, inqilabilik, formaca millilik - məzmunca sosialist, iki mədəniyyət (istismarçıların və zəhmətkeşlərin) və digər sənətə aidliyi olmayan prinsipləri bədii yaradıcılığın əsas kateqoriya və prinsipləri kimi təsdiq etdilər. Beləliklə, sosialist realizmi sovet xalqlarının milli ədəbi-mədəni ənənəsinin təkamülü və bəşəri mənəvi-mədəni təkamül nəticəsində deyil, qurama konsepsiya olaraq ədəbi fikrə daxil edildi. Görkəmli yazıçı, alim Elçin Əfəndiyev bu prosesi dolğun şərh edir: "Sosrealizm Azərbaycan ədəbiyyatına və ictimai fikrinə təbii şəkildə gəlmədi, inzibati yolla gətirildi və SSRİ məkanını, sosialist ölkələrini çıxmaqla dünya ədəbiyyatı tarixində belə bir hadisənin analoqu yox idi. Sosrealizm ədəbiyyatımızın axtarışları, istəyi, bədii-estetik ehtiyacı ilə yox, sovet (Stalin) sisteminin zoru ilə ədiiyyata tətbiq edildi" [1, s.3].

## 5. Mülayimləşmə dövrü ədəbiyyatında realizmin təkamülü

Artıq keçən əsrin 50-ci illərindən başlayan siyasi-ictimai mülayimləşmə prosesinin nəticəsi olaraq formalaşmış lirik-psixoloji və mifopoetik nəsr, simvolik şeir və digər ədəbi meyllər tədricən özünəməxsus ədəbi cərəyanlar kimi formalaşdı. 1950-ci illərin sonu, 1960-cı illərdə Azərbaycan nəsrində "Yeraltı sular dənizə axır" (Mehdi Hüseyn), "Söyüdlü arx", "Körpüsalanlar" (İlyas Əfəndiyev), "Dəli Kür" (İsmayıl Şıxlı), "Teleqram", "Saz", "Kollu Koxa" (İsa Hüseynov), "Telefonçu qız" (Həsən Seyidbəyli), "Yamacda nişanə" (Sabir Əhmədov) və s. kimi əsərlər ədəbi prosesdə köklü dəyişikliklərə - formaca deyil, mahiyyətcə milli xarakterlərin ədəbiyyata gəlməsinə, insanın daxili aləminin tədricən ədəbi təhlilin başlıca məsələsinə çevrilməsinə yol açdı. Bununla da altmışıncılar ədəbi nəslinin, lirik psixologizmi, cəmiyyətin normalarına asi fərdlərin, sadə, öz daxilinə dalmış personajların ədəbiyyata gətirilməsinə təkan verdi. Anar, Elçin, İsi Məlikzadə, Yusif Səmədoğlu, Fərman Kərimzadə, Sabir Əhmədli, Mövlud Süleymanlı kimi altmışıncılar nəslinə aid nasirlərin yaradıcılığında iki ədəbi meyl - "şəhər nəsri" və "kənd nəsri" öz yaradıcılıq üslubu, poetikası, problematikası olan ədəbi istiqamətlər kimi intişar tapdı. Şəhər nəsri meqapolisdə özündən və mühitindən təcridlənən tənha qəhrəmanların daxili mənəvi-psixoloji aləmini, kənd nəsri isə qlobal ictimai proseslərin, urbanizasiyanın təsiri ilə etnik-milli kimliyindən uzaqlaşan xalqın tarixi faciəsini

əks etdirdi. Ədəbiyyatda sosialist realizminin ziddinə olan bu meyllər 60-cı illərin realizminə lirik-psixoloji çalar gətirdi. Realizmin yeni mərhələsi 1970-80-ci illərdə mifopoetik nəsr yaradıcılığında aşkarlandı.

Beləliklə sosialist realizmi gerçək ədəbi prosesdə ənənələri bu gün də davam edən iki yaradıcılıq meyli – sosial-psixoloji və mifopoetik yaradıcılıq istiqaməti ilə əvəzləndi. Sosial-psixoloji istiqamətdə (İsa Hüseynov ("Teleqram", "Tütək səsi", "Saz"), S. Əhmədli ("Yamacda nişanə", "Yaşıl teatr"), İsi Məlkzadə ("Dədə palıd", "Küçələrə su səpmişəm", "Evin kişisi"), A.Məsud ("Sərçələr", "Gecə"), Nəriman Əbdülrəhmanlı ("Yalqız")) ictimai proseslərin lirik-psixoloji aspektdə təhlili, fərdiləşdirmə və ümumiləşdirmə; mifopoetik nəsrdə (Y. Səmədoğlu. ("Qətl günü"), M. Süleymanlı ("Köç", "Dəyirman", "Şeytan", "Yel Əhmədin bəyliyi")) isə magik realizmə xas irreal, bəşəri, mistik, fantastik səpkidə təqdim olundu. Beləliklə, ədəbi inkişaf prosesi altmışıncılar nəslinin yaradıcılığında ilk növbədə Molla Nəsrəddin" ədəbi məktəbi ilə əlaqədə və maarifçi-tənqidi realizmin yeni poetik modifikasiyaları əsasında meydana çıxdı. Qeyd edək ki, realizmin estetik, poetik, məzmun cəhətdən yeniləşməsi keçmiş sovet məkanının ictimai-tarixi proseslərini əks etdirirdi və buna görə də nəsr yaradıcılığında baş verən dəyişikliklər bütövlükdə ümumittifaq ədəbi prosesi kontekstində izlənilirdi. "Kənd nəsri", "şəhər nəsli", lirik-psixoloji nəsr, magik realizm, mifopoetik nəsr və sairə bu kimi anlayışlar bu və ya digər dərəcədə və formalarda İsmayıl Şıxlı, İsa Muğanna, İlyas Əfəndiyev, Çingiz Hüseynov, Anar, Elçin, İsi Məlikzadə, Sabir Əhmədov, Mövlud Süleymanlı və eləcə də Çingiz Aytmatov, Vasili Şukşin, Fyodor Abramov, Yuri Trifonov, Valentin Rasputin, Vasili Belov, Vladimir Makanin, Nodar Dumbadze, Otar Çiladze, Timur Zülfiqarov, Timur Pulatov, Nafi Cusoytı, Yonas Avijyus kimi yazıçıların yaradıcılığını əhatə edirdi.

## 6. Postsovet dövrünün ədəbi prosesində yaradıcılıq meylləri (müqayisəli aspektlər)

Nəticə etibarilə, müvafiq dövrün ədəbi yaradıcılıq mühiti akademik İsa Həbibbəylinin formulu ilə "çoxmetodlu ədəbiyyat" adlandırıldı. Müstəqillik dövründə ədəbi əlaqələrin tamamilə liberallaşması, ideoloji ehkamların aradan qaldırılması bədii ədəbiyyatda milli qaynaqlara əsaslanan fərdi yaradıcılıq üsul və üslublarının qərarlaşmasına gətirib çıxarmış, bunlara uyğun olaraq özünəməxsus ədəbi birliklər təşəkkül tapmışdır. Akademik İsa Həbibbəyli bu prosesi haqlı olaraq, müstəqilliyimizin və sovet ehkamçılığından qurtulmağın bəhrəsi hesab edir:

"Dövlət müstəqilliyinin 27 ili ərzində Azərbaycanda müxtəlif ədəbi baxışları və fərqli üslubları əhatə edən çoxmetodlu ədəbiyyat formalaşmışdır. Başlanğıc mərhələdə əvvəlcə ədəbi qruplar və yaradıcılıq birlikləri meydana gəlmiş və ədəbiyyatın hər hansı bir yeni istiqamətdə inkişafında maraqlı olduqlarını bəyan etmişlər. Bu zəmində XX əsrin doxsanıncı illərində yaranmış "Baca" (Rasim Qaraca), "Ağ yol" (Fəxri Uğurlu və b.), "2+" (Xanəmir, Dəyanət Osmanlı), "AYO" (Murad Köhnəqala), "Avanqard" (Dəyanət Osmanlı), "Dəniz" (İbrahim İlyaslı), "Ay işığı" (Ramiz Qusarçaylı), "Yeni Yazarlar və Sənətçilər Qurumu" (Aydın Xan), "Dünya Gənc Türk Yazarlar Birliyi" (Əkbər Qoşalı), "Ədəbi klub" (Əjdər Ol), "Sözün davamı"

(Elçin Mirzəbəyli), "Şəms" (Simuzər Baxışlı), "Xatun" (F. Hacıyeva), "Pərvanə ədəbi məclisi" (Qəşəm Nəcəfzadə), "Nöqtələr" (Bilal Alarlı), "Eqo Yaradıcılıq ordeni" (Elçin Hüseynbəyli) və sair müxtəlif məqsədlərlə fəaliyyət göstərən ədəbi qruplar, birliklər və məclislər geniş mənada yeni tarixi şəraitdə ölkədə demokratik ədəbi gedişatın və fərqli ədəbi mühitin formalaşdırılmasına şərait yaratmış, çoxsəsli Azərbaycan ədəbiyyatının yaranmasının hərəkətverici qüvvəsinə çevrilmişdir. Bir çox hallarda bu ədəbi qruplar arasında gedən yaradıcılıq mübahisələri, hətta onlardan bəzilərinin Azərbaycan Yazıçılar Birliyi ilə haqlı-haqsız üz-üzə gəlmələri nəticə etibarilə ədəbiyyatda fikir müxtəlifliyinin, demokratik ab-havanın, yaradıcılıq metodları və bədii üslubların mübarizəsinə meydan açmışdır" [2].

Akademik İsa Həbibbəyli müstəqilliyin milli ədəbiyyatımızı yaradıcılıq imkanları, yeni cərəyanlarda aşkarlanan ədəbi rəngarənglik baxımından da canlandırdığını və bu dövrdə Azərbaycan ədəbiyyatında *neorealizm, postmodernizm, dekadentizm, magik realizm, akademizm* kimi ədəbi cərəyanları aşkar edir, son cərəyanın daha çox elmi yaradıcılığa aid olduğunu qeyd edir [3].

Göründüyü kimi, beş ədəbi cərəyandan ikisi realizmlə bağlıdır və bunun həm ədəbi-tarixi, həm də ədəbi-estetik əsası vardır. Belə ki, keçmiş Rusiya imperiyası və SSRİ tərkibində olmuş, 1990-cı illərdə müstəqillik əldə etmiş xalqların ədəbiyyatında Qərb meylləri XIX əsrin ilk onilliklərindən Rusiya vasitəsilə yaranmış və ilk həmin əsrin böyük bir mərhələsində maarifçilik səciyyəsi daşımışdır. Keçən əsrin əllinci illərindən başlayan mülayimləşmə dövründən isə, sovet məkanındakı xalqların ədibləri və oxucuları artıq xarici ölkələr ədəbiyyatına birbaşa müraciət edir, ədəbiyyatda yeni meyllər milli zəmində mənimsənilirdi.

Müstəqillik dövrünün ədəbi prosesi eyni zamanda dinamik bir hadisədir və burada ədəbi cərəyanlar hətta fərdi yaradıcılıq səviyyəsində də təzahür edə bilir. Əsasən, realizmin modifikasiyaları olan bu cərəyanlardan Afaq Məsudun tənqidi və **sərt realizmini**, Azad Yaşarın **mediativ-parodik**, Salam Sarvanın **assosiativ,** Etimad Başkeçidin **dekonstruktiv** nəsr və poeziyasını, Rasim Qaracanın **minimalist** yaradıcılığını qeyd edə bilərik.

Bu dövrün tarixi proseslərinin səciyyəsindən gələn Qarabağ mövzusu milli ədəbiyyatımızda müharibə nəsrini inkişafına təkan verdi. Sabir Əhmədlinin **«Axirət sevdası»,** Aqil Abbasın **«Dolu»,** Kamil Əfsəroğlunun «**Çadır»,** Zümrüd Yağmurun **«Yağış qadın»,** Nurəddin Ədiloğlunun **«Qara sarmaşıq»** romanları bu mövzu və janrın yeni keyfiyyət səviyyəsini aşkarladı.

Müstəqillik dövrü müəyyən mənada həm də postsovet dövrü deməkdir və buna görə də bu mərhələnin ədəbiyyatını, xüsusən, bu məkanda uzun illər dominant olmuş realizmin yeniləşməsi prosesini yalnız müqayisəli baxımdan dolğun anlamaq olar. Bu müqayisələr, təbii ki, yalnız oxşar deyil, yerli mühit və kontekstdən gələn fərqlilikləri də aşkarlayacaq və məhz bu baxımdan da daha əhəmiyyətli olacaq. Bu baxımdan zəngin realizm ənənələri olan müasir rus ədəbiyyatında realizmin neoklassik nəsr, şərti-metaforik realizm, turborealizm, "sərt nəsr",

reallığı reallıq işarələri - simulyakrla əvəz edən postmodernist hiperreallıq kimi rəngarəng modifikasiyaları formaşlaşmışdır [5].

Beləliklə, postsovet məkanında müxtəlif xalqların ədəbi prosesində realizm ənənələri müasir gerçəkliyə, ədəbi-mədəni və ictimai situasiyaya uyğun şəkildə yeni janr, üslub, məzmun modifikasiyalarında təzahür edərək, müəyyən ortaq və fərqli şəkildə təzahür etməkdədir. Bu poetik prosesin ayrılıqda və ümumi postsovet məkanında müqayisəli tədqiqi həm milli ədəbiyyatların, həm də regional ədəbi proseslərin daha dolğun elmi dərkinə təkan verə bilər.

## Ədəbiyyat


1. Elçin (2010), Sosrealizm bizə nə verdi?. Bakı, Mütərcim, 76.
2. Həbibbəyli İ. (2023), Çoxmetodlu ədəbiyyata keçid və yeni ədəbi cərəyanların formalaşması prosesləri. Poetika.izm, No.1, 6-11. https://doi.org/10.59849/2663-2926.2023.1.6
3. Həbibbəyli İ. Çoxmetodlu Azərbaycan ədəbiyyatı. Müstəqillik dövrü. Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. http://www.anl.az/down/meqale/525/2018/yanvar/571843.htm
4. Osmanlı V. (2010), Azərbaycan romantizmi, I cild. Bakı, Elm, 464.
5. Гаджиев А. (2022), Русская проза рубежа XX и XXI веков. Основные направления и течения: Учебно-методическое пособие. Саратов, 50.